**“Yapı Kredi Bank Azərbaycan” QSC-nin 2024-2028-cü illəri üçün**

**Strateji Planının qısa icmalı**

**“Yapı Kredi Bank Azərbaycan” QSC-nin əsas səhmdarı “Yapı ve Kredi Bankası A.Ş.” aktiv həcmi ilə Türkiyənin aparıcı banklarından biridir. Yapı Kredi 1944-cü ildəki quruluşundan bu yana, müştəri yönümlü bankçılıq anlayışı və yenilikçiliyi ön planda tutan münasibəti ilə bazardakı mövqeyini davamlı olaraq möhkəmləndirir.**

**“Yapı Kredi Bank Azərbaycan” QSC öz missiyasını səhmdarının obrazına uyğun həyata keçirir.**

“Yapı Kredi Bank Azərbaycan” QSC güclü xarici səhmdarlıq strukturuna, yüksək korporativ dəyərlərə və yüksək ictimai etimada malik, rəqabətədavamlı, müasir, şəffaf və etibarlı bankdır.

Bank, 2024-2028-ci illər üzrə Strateji Planı ilə qarşıdakı beş illik dövrdə mükəmməllik, rəqabət qabiliyyətlilik, qabaqcıllıq və universallıq xüsusiyyətlərini möhkəmləndirərək, texnologiyaya yatırım edərək rəqəmsal bankçılığı genişləndirməyi və prosedurları optimallaşdırmaqla bazardakı mövqelərini və mənfəətliliyini artırmağı hədəfləyir.

## STRATEJİ BAXIŞ, MİSSİYA, STRATEGİYA VƏ DƏYƏRLƏR

**Strateji baxış:** Bütün seqmentlərdə müştərilərinə üstün xidmət göstərərək Azərbaycanda qalıcı dəyər yaradan bank olmaq.

**Missiya:** Uzunmüddətli sağlam böyümək, səhmdarlar üçün dəyər yaratmanı təmin etmək, müştərilərin və işçilərin ilk seçimi olmaq.

## Strategiya

Müasir texnologiyaya yatırımları artırmaqla qabaqcıl rəqəmsallaşmağa nail olmaq, loyal işçi qüvvəsi ilə idarə olunan biznes modeli vasitəsilə məsuliyyətli artımı təmin edən müştəri yönümlü və bütün tərəflər üçün mənfəət yaradan bank olmaq.

## Dəyərlər

### Sərbəstlik

Biz innovativ ideyaları qiymətləndiririk, yaradıcı fikirlərin sərbəst ifadə oluna biləcəyi iş mühiti yaradırıq, dəyişiklik etməkdə və yenilik gətirməkdə liderik.

### Rəqabət qabiliyyətlilik

Biz həmişə uzaqgörənliklə ən yaxşısını etmək üçün çalışırıq, yüksək enerji və həvəslə çətin hədəflərin öhdəsindən gəlirik.

### Məqsədyönümlülük

Bütün aspektlərdə yüksək hədəflər qoyuruq, onlara nail olmaq üçün diqqətimizi itirmədən var gücümüzlə çalışırıq.

### Çeviklik

Biz bazar dəyişikliklərinə qarşı sürətli və düzgün qərarlar verir, həmçinin müştərilərimizin ehtiyaclarına eyni sürət və çevikliklə cavab veririk. Keyfiyyətdə güzəştə getmədən, biz həm xaricdə, həm də daxildə dəyişiklikləri ən effektiv şəkildə idarə edir, bununla da rəqabət üstünlüyünü əldən vermirik.

### Yenilikçi olmaq

Yenilik yaratma qabiliyyətimiz rəqabət aparma gücümüzün ən mühüm parçasıdır. Davamlı təkmilləşməyə inanırıq. Yeni ideyaları həyata keçirir, resurslarımızdan səmərəli şəkildə istifadə edir, özümüzü, biznes proseslərimizi və məhsulları daim nəzərdən keçirir və təkmilləşdiririk.

### Səmərəlilik

Sərhədləri aşmaq üçün çalışmağa inanırıq. Bizim üçün önəmli olan, yaratdığımız əlavə dəyərdir. Səmərəliliyi artıracaq texnologiyalar, iş sistemləri və proseslər bizim üçün mühüm əhəmiyyət kəsb edir.

### Müştəri yönümlülük

Biznes fəlsəfəmizin və misilsiz xidmət anlayışımızın mərkəzində müştərilərimiz durur. Qurulduğumuz gündən bəri "Xidmətdə Hüdud Yoxdur" fəlsəfəsi ilə müştərilərimizə təqdim etdiyimiz xidmətləri zənginləşdiririk, qarşılıqlı inkişafa, “qazan-qazan” münasibətlərinə və dəyər yaratmağa diqqət yetiririk.

### “Bir olmaq”, Birlikdə Olmaq, Biz Birik

Yapı Kredi Ailəsi olaraq bir komanda, bir vücud kimi çalışırıq. Komanda ruhu və birgə zehin bizim ən güclü xüsusiyyətlərimizdəndir. Açıq ünsiyyət, əməkdaşlıq və qarşılıqlı kömək bu anlayışı dəstəkləməyə davam edir.

### Dayanıqlılıq

Qeyri-müəyyən və mürəkkəb zamanlarda biz davamlılığa və fasiləsiz xidmətə diqqət yetiririk, hər zaman gözlənilməyən vəziyyətlərə hazırıq və ən çətin şərtlər qarşısında belə güclü qalırıq.

## Davamlılıq

Bütün maraqlı tərəflər üçün uzunmüddətli dəyər yaratmağa çalışırıq. Sosial inkişafı əsas məqsəd kimi qəbul edərək, davamlılığa yönəlmiş xidmət anlayışımızı davam etdiririk. Qərarlarımızın və hərəkətlərimizin uzunmüddətli təsirlərinə diqqət yetiririk və davamlılığı iqtisadi, sosial və ekoloji sahələri əhatə etməklə bütün biznes proseslərimizə uyğunlaşdırırıq.

2024-2028-ci illər üzrə Strateji Plan müddəti çərçivəsində əsas məqsəd aşağıdakılara nail olmaqdır:

- Əsas biznes sahələrində əməliyyat səmərəliliyini təkmilləşdirməklə uğurlu transformasiyanı həyata keçirmək;
- Proporsional və davamlı uzunmüddətli artım perspektivlərinin bünövrəsinin gücləndirilməsi;
- Gələcəkdə baş verə biləcək dəyişikliklərə sürətlə uyğunlaşma potensialına malik olmaq;

## Ətraf Mühitin Mühafizəsi

Yapı Kredi Bank Azərbaycan ölkədə baş verən ekoloji təşəbbüs və layihələri dəstəkləyir. Yapı Kredi Bank Azərbaycan həyata keçirdiyi bankçılıq fəaliyyətlərini ətraf mühitə və cəmiyyətə həssas bir şəkildə davam etdirnəyi və təkmilləşdirməyi qarşısına hədəf qoyur. Bankın ətraf mühitlə bağlı fəaliyyətlərinin əsasını BMT-nin Qlobal Saziş korporativ təşəbbüsünün universal prinsipləri və Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri təşkil edir.

Bankın ekoloji və sosial siyasətinin əsas hədəflərini aşağıdakılarla ifadə etmək mümkündür:

- Ətraf mühitə təsirləri minimuma endirmək;
- Ətraf mühit və sosial fəaliyyətləri davamlı olaraq təkmilləşdirmək;
- Ətraf mühit və sosial fəaliyyətlər barədə mütəmadi olaraq hesabat vermək;
- Ətraf mühit və sosial məsələlər üzrə maraqlı tərəflərlə səmərəli əlaqələr saxlamaq.

Bank ətraf mühit, sosial və idarəetmə məsələlərində fəaliyyətini Koç Holdinqin bu sahədə yenilikçi yanaşması və siyasətlərinə uyğun olaraq həyata keçirir.